İpək və atlaz geyinməyin, qızıl və gümüş qablardan içməyin və onlardan hazırlanmış qablarda yemək yeməyin, çünki bunlar dünyada onlar (kafirlər) üçün, axirətdə isə bizim üçündür”

Abdurrəhman bin Əbi Leylədən rəvayət edildiyinə görə, onlar Huzeyfənin (Allah ondan razı olsun) yanında idilər və o, su istədi və bir məcusi ona içməyə bir şey verdi və məcusi fincanı onun əlinə qoyduqda, Huzeyfə onu məcusinin üstünə atıb dedi: əgər onu dəfələrlə qadağan etməsəydim - sanki demək istəyirdi ki: Mən bu cür etməzdim - lakin mən Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "İpək və atlaz geyinməyin, qızıl və gümüş qablardan içməyin və onlardan hazırlanmış qablarda yemək yeməyin, çünki bunlar dünyada onlar (kafirlər) üçün, axirətdə isə bizim üçündür”.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) kişilərə ipəyin istənilən növünü geyinməyi qadağan etmişdir. Həmçinin kişilərə və qadınlara qızıl və gümüş qablardan yemək və içməyi qadağan etmişdir. Və xəbər vermişdir ki, bunlar Qiyamət günü yalnız möminlərə aid olacaq. Çünki möminlər dünyada ikən Allaha itaət etdikləri üçün bu şeylərdən uzaq dururdular. Kafirlərə gəlincə, bu şeylər axirətdə onlara aid olmayacaq. Çünki onlar bu gözəlliklərdən istifadə etməklə və Allahın əmrinə asi olmaqla dünya həyatında onu əldə etməkdə tələsdilər.

http://sunnah.global/hadeeth/az/show/2985